Martın 13-də Təhsil Nazirliyində "British Council" təşkilatı ilə nazirliyin birgə həyata keçirdiyi layihələrə həsr olunmuş mərasim keçirilib.

Mərasimdə təhsil naziri Misir Mərdanov birgə reallaşdırılan layihələrin əhəmiyyətli rolundan danışaraq bu işdə əməyi olan "British Council"un Azərbaycan üzrə direktoru cənab Əndi Uilyamsın xüsusi xidmətlərini qeyd edib. Eyni zamanda nazir cari ilin mayından etibarən xanım Nikol de Laluvyerin həmin səlahiyyətləri icra edəcəyini açıqlayıb.

Sonra Misir Mərdanov "Azərbaycan Respublikası Təhsil Nazirliyi və "British Council" tərəfindən həyata keçirilən birgə layihələr" mövzusunda məruzə-təqdimat edib. Nazir öz təqdimatında təşkilatın ölkəmizdə 1993-cü ildən fəaliyyətə başlaması, Böyük Britaniya ilə Azərbaycan arasında qarşılıqlı və faydalı əlaqələrin qurulması istiqamətində atılan addımlar, təhsil sahəsində həyata keçirilən 15 layihənin hər biri haqqında ətraflı məlumat verib.

Tədbirdə təhsil naziri Misir Mərdanov "British Council" təşkilatının gördüyü işləri təqdirəlayiq hal kimi dəyərləndirib və cənab Əndi Uilyamsın Böyük Britaniya-Azərbaycan təhsil əlaqələrinin inkişafındakı xidmətlərinə, müəllim hazırlığı üzrə birgə layihələrin həyata keçirilməsi sahəsində səmərəli fəaliyyətinə görə nazirliyin Fəxri Fərmanı ilə təltif edildiyini mərasim iştirakçılarının diqqətinə çatdırıb.

Cənab Əndi Uilyams onun əməyinə verilən bu diqqət üçün təşəkkürünü bildirib və birgə əməkdaşlığın verdiyi töhfələrdən danışıb, habelə hər iki ölkə arasında əlaqələrin yaradılmasına çalışdıqlarını diqqətə çatdırıb.

Yeni təyin olunan direktor xanım Nikol de Laluvyer işə aparılan işin davam etdiriləcəyini, əməkdaşlığın inkişafının vacibliyini qeyd edib.